**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 037/531

**Bakı şəhəri** "11" iyun **2026-cı il**

**Ölkə ərazisinin xarici ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması üçün epizootoloji nəzarətin gücləndirilməsi haqqında**

Son dövrlərdə müxtəlif ölkələrdə xüsusi təhlükəli yoluxucu heyvan xəstəliklərinin yayılma tendensiyası epizootik risklərin artdığını göstərir. Bu şəraitdə heyvanların daşınması zamanı biotəhlükəsizlik tədbirlərinin kifayət qədər təmin olunmaması, o cümlədən heyvanların sıx təmasda saxlanılması, qeyri-adekvat ventilyasiya şəraiti, sanitar-gigiyenik normaların pozulması və daşınma vasitələrinin lazımi qaydada dezinfeksiya edilməməsi xəstəlik törədicilərinin yayılmasına əlverişli zəmin yarada və nəticə etibarilə ölkə ərazisində epizootik vəziyyətin pisləşməsi riskini əhəmiyyətli dərəcədə artıra bilər. Nəqliyyat vasitəsinin müvafiq tələblərə və yüklənmə normalarına cavab verməməsi idxal və tranzit daşınmalar zamanı heyvanlara sərhəd baytarlıq nəzarətinin effektivliyini azaldır ki, bu da xüsusi təhlükəli heyvan xəstəliklərinin ölkə ərazisinə keçməsinə imkan yaradır.

Daşınma zamanı heyvanların sıx yerləşdirilməsi, düzgün havalandırma rejiminin təmin olunmaması, uzunmüddətli stres və fiziki zədələnmələr heyvan rifahı prinsiplərinin pozulmasına səbəb olur. Bu isə həm heyvanların immun statusunun zəifləməsinə, həm də xəstəliklərə qarşı həssaslığın artmasına şərait yaradır. Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) mövcud tövsiyələrinə əsasən, xüsusilə iri və xırdabuynuzlu heyvanların daşınması prosesində nəqliyyat vasitələrinin heyvanların növünə, yaşına, ölçüsünə və canlı kütləsinə uyğun şəkildə layihələndirilməsi və təchiz edilməsi onların sağlamlığının qorunması və stres faktorlarının minimuma endirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-2-ci və 3.0.33-4-cü yarımbəndlərinə əsasən

**Qərara alıram:**

1. 2027-ci il 1 yanvar tarixindən ölkəyə idxal olunan heyvanların daşınması Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə uyğun tələblərə cavab verən ixtisaslaşdırılmış nəqliyyat vasitələrində həyata keçirilsin.
2. 2027-ci il 1 yanvar tarixinədək olan müddət hazırlıq mərhələsi kimi müəyyənləşdirilərək ölkəyə idxal edilən heyvanların uyğunlaşdırılmış nəqliyyat vasitəsində daşınmasına yalnız bir mərtəbə üzrə yerləşdirilməklə maksimum iribuynuzlu heyvanlar üçün 60 baş, xırdabuynuzlu heyvanlar üçün isə 150 baş həddində icazə verilsin.
3. Daşınma üçün ixtisaslaşdırılmış nəqliyyat vasitələrində heyvanların növündən asılı olaraq

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
11.06.2026

- **İribuynuzlu heyvanlar üzrə:**

| Heyvanın təqribi diri çəkisi (kq) | Hər bir heyvan üzrə sahə norması (m²/heyvan) |
|---|---|
| ≥ 50 | 0.30 |
| 50-80 | 0.30-0.40 |
| 81-110 | 0.40-0.70 |
| 111-200 | 0.70-0.95 |
| 201- 325 | 0.95-1.30 |
| 236- 550 | 1.30-1.60 |
| 551-700 və yuxarı | > 1.60 m² |

- **Xırdabuynuzlu heyvanlar üzrə:**

| Kateqoriya | Diri çəkisi (kq) | Sahə (m²/heyvan) |
|---|---|---|
| 26 kq və daha çox ağırlıqda qırxılmış qoyun və quzular | < 55 | 0.20-0.30 |
| | > 55 | > 0.30 |
| Qırxılmamış qoyunlar | < 55 | 0.30-0.40 |
| | > 55 | > 0.40 |
| Boğazlığın son dövründə olan qoyunlar | < 55 | 0.40-0.50 |
| | > 55 | > 0.50 |
| Keçilər | < 35 | 0.20- 0.30 |
| | 35 - 55 | 0.30-0.40 |
| | > 55 | 0.40-0.75 |
| Boğazlığın son dövründə olan keçilər | < 55 | 0.40-0.50 |
| | > 55 | > 0.50 |

4. Bu Qərarın icrasının təmin edilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

5. Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu Qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

6. Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi bu Qərarın icrası ilə bağlı idxalçıların məlumatlandırılmasını təmin etsin.

7. Agentliyin Aparatının Beynəlxalq əlaqələr şöbəsi bu Qərarın icrası ilə bağlı ixracatçı ölkələrin məlumatlandırılmasını təmin etsin.

8. Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu Qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
11.06.2026